**Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi aşağıdakı vəzifələrin tutulması üçün daxili müsahibə ELAN EDİR:**

- 2-ci Ərazi şöbəsi (Avropa ölkələri, Amerika ölkələri və İsrail), şöbə müdiri
- 1-ci Ərazi şöbəsi (Rusiya, Ukrayna, Belarus və Moldova), Rusiya ilə iş sektoru, şöbə müdirinin müavini-sektor müdiri
- İnsan resursları, hüquq və sənədlərlə iş şöbəsi, Hüquq və sənədlərlə iş sektoru, baş məsləhətçi

Müsahibədə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsində inzibati vəzifədə qulluq keçən və müvafiq ixtisas dərəcəsinə malik olan dövlət qulluqçuları iştirak edə bilər.

Müsahibədə iştirak etmək üçün aşağıdakı sənədlər təqdim edilməlidir:

- ərizə;
- kadr uçotunun şəxsi vərəqəsinin surəti (bütün bölmələr üzrə məlumatlar tam olmalı və hazırki dövrü əks etdirməlidir);

**Müsahibədə iştirak etmək üçün ərizələrin qəbulu 24 yanvar 2020-ci il tarixdən 7 fevral 2020-ci il tarixdə saat $18^{00}$-dək aparılacaq. Ərizələr şəxsən (bazar ertəsi – cümə günləri saat $09^{00}$-dan $13^{00}$-dək və $14^{00}$-dan $18^{00}$-dək), yaxud poçt vasitəsi ilə təqdim edilə bilər.**

Müsahibə zamanı müsahibədə iştirak edən dövlət qulluqçusunun bilik səviyyəsi, peşə hazırlığı, ümumi dünyagörüşü, barəsində müsahibə elan edilən vəzifə üçün zəruri olan şəxsi keyfiyyətləri yoxlanılmaqla müvafiq vəzifəyə uyğunluğu müəyyən edilir. Müsahibədə ixtisas dərəcəsi, müvafiq vəzifənin tələblərinə uyğun olaraq təkrar hazırlıq keçirilməsi və ixtisasın artırılması da nəzərə alınır.

Müsahibədə barəsində müsahibə elan edilən vəzifənin təsnifatından ən çoxu iki təsnifat aşağı inzibati vəzifələrdə qulluq keçən dövlət qulluqçuları iştirak edə bilərlər.

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29.5-ci maddəsinin ikinci hissəsinə əsasən barələrində intizam tənbehi tətbiq edilmiş dövlət qulluqçuları bir il ərzində müsahibəyə buraxılmırlar.

Namizəd müəyyən edilmiş şərtlərə cavab vermədikdə, habelə onun tərəfindən təqdim edilmiş məlumat və sənədlərdə bilərəkdən yanlış məlumatlar verilməsi aşkar edildiyi halda, namizədin müsahibədə əldə etdiyi nəticələr etibarsız hesab edilir.

Müsahibəyə dair ətraflı məlumat almaq üçün Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, İnsan resursları, hüquq və sənədlərlə iş şöbəsinə müraciət edilə bilər.

**Telefon: 012 493 10 54**

**Razılaşdırılmışdır**

**Diasporla İş üzrə Dövlət Komitəsinin**
**İnsan resursları, hüquq və sənədlərlə iş şöbəsinin müdiri** **Ceyhun Abbasov**

**Dövlət İmtahan Mərkəzinin**
**Dövlət qulluğu məsələləri şöbəsinin müdiri** **Vüqar Əsgərov**